Ədəbiyyat QƏZETİ



# Fəridə HACIYEVA-70

Hörmətli Fəridə xanım!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü ildə Sumqayıt şəhərində anadan olmusunuz. Burada 13 saylı orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra Bakıda Kitabxanaçılıq Texnikumunda, sonra Azərbaycan Dövlət Universitetində təhsilinizi davam etdirmisiniz.

Əmək fəaliyyətinizə M.F.Axundov adına Mərkəzi Dövlət Kitabxanasında başlamısınız. Sonra Respublika Aşıqlar Birliyində metodist, folklor şöbəsinin müdiri işləmisiniz.

Siz bədii yaradıcılığa ötən əsrin 60-cı illərində başlamısınız. İlk şeiriniz 1966-cı ildə "Sosialist Sumqayıtı" qəzetində işıq üzü görüb. Sonrakı illərdə "Məni məndən alan dünya", "Dünyama qovuşacağam", "Göylər pənahım mənim", "Bağışla, vətən, bağışla", "Qaytarın Tanrı sevgisin" və s. kitablarınız çap olunub.

Siz həm də bədii tərcümə ilə məşğul olursunuz. Rus şairi Mixay Emineskunun şeir və poemalarını dilimizə çevirərək nəşr etdirmisiniz.

Hörmətli Fəridə xanım!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə yeni yaradıcılıq uğurları və cansağlığı arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**